**Bismilləhir Rəhmənir Rahim. Yə Rabbəl Şuhədə...**

# Bəxtəvərin Bəxtəvəri!

**Şəhid Kərbəlayi Rəvan Alxaslının Xatirələri**

**Şəhidlər Anası Həzrəti Zəhraya (s.ə.), Kərbəla Qəhrəmanı Həzrəti Əbəlfəzlə(ə) və Ağamız İmam Zamana  (ə.f.) təqdim olunur!**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:........................Bəxtəvərin Bəxtəvəri!**
**Kitabın təqdimat tarixi:..................... 14.02.2025**
**Kitabın hicri-qəməri təqvimi ilə təqdim tarixi:............ 15 Şaban 1446 (Nimeyi Şaban)**

# *Ön söz*

*Şəhidlərin və sidqi qəlbdən inananların Allahının adı ilə...*

Əmim haqqında yalnız gözəl şeylər xatırlayıram. Yaddaşımda yalnız gülüşləri, mehribanlığı, sadəliyi, təvazökarlığı və bir çox gözəl xüsusiyyətləri qalıb...

Bir yerdə bir söz oxumuşdum. Orda deyirdi, "gənclər özlərinə ideal qəhrəmanlar axtarırlar. Hansısa futbolçunu, aktyoru özləri üçün kumir seçirlər. Lakin əsl qəhrəmanlar, xalqın içində gizlidir."

Necədə düzgün və yerində deyilmiş bir sözdür, deyilmi? Həqiqətən də qəhrəman olmaq üçün mütləq sənətçi olmağa ehtiyac yoxdur. Biz özümüz şəhid olmamışdan və məhşurlaşmamışdan əvvəl şəhidlərdən neçəsini tanıyırdıq? Bəlkə də, heç birini!

Çünki, sənət sahibi və tanınmış deyildilər!

Onlarda sadə bir insan idilər. Amma şəhadət üçün seçilmiş insanlar!

Mənim əmimdə onlardan birisidir. Bəlkə də, çox tanınmır, amma o mənim nəzərimdə ən böyük qəhrəmandır! Şəhidlərin hər biri qəhrəmandır. Xalqın, ümmətin qəhrəmanı!

Fikirləşirəm... Deyəsən onunla çox vaxt keçirə bilməmişəm deyə, çox şey xatırlamıram. Amma indi heyfislənirəm. Kaş ki, şəhid olacağını öncədən bilib, onunla keçirdiyim anların qədrini bilsə idim...

Qısa ömründə mənim üçün böyük örnəklər qoydu...
Əhli-beytə(ə.s), şəhadətə olan eşqi, pak qəlbi, təvazökar davranışları...
Şəhid olmaq üçün, şəhid kimi yaşadı. Ruhunu, qəlbini şəhidlik üçün hazırladı...

Son dəfə səsini eşitdiyim anı xatırlayıram:

Zəng etmişdi. Əhvalı çox yaxşı idi. Sanki döyüşdə, təhlükənin altında deyildi. Gülürdü, danışırdı... Çox sakit və rahat! Sanki onun özü də hiss etmişdi artıq şəhadət üçün seçildiyini...

Mən isə sanki son danışığımız olduğunu hiss etmişdim, lakin qəbul etmək istəmirdim. Sanki içimdə bir səs mənə bu zəngin son zəng olduğunu deyirdi, mən isə daim inkar edirdim. Çox narahat olmuşdum. Danışa bilmədim. Mənim üçün əziyyətverici olan bu fikirləri beynimdən çıxarıb rahat danışmaq istəyirdim. Dedim gələn dəfə danışaram, amma qismət olmadı...

Qismət... Nə gözəldir şəhadətlə bitməsi...
Hər kəsə nəsib olmayan qismət...

Hüseynzadə Ləman
Şəhidin qardaşı qızı

# *Bismilləhir Rəhmənir Rahim*

**Şəhidin Atası:**

Rəvan mənim beşinci övladım və evimizin son beşiyi idi. Rəvan adın çox sevdiyim üçün bu adı ona özüm qoymuşam. Düzdür o dünyaya gəldiyi ərəfədə maddi olaraq müəyyən qədər əziyyətlər çəksək də, övladı dünyaya gələn hər ata kimi mən də çox sevinirdim. Onu böyütmək üçün bazarda işləyirdim, minbir əzab-əziyyətlə tər tökürdüm. Fəqət bu qədər çətinlik içərisində qətiyyən evimə və övladlarıma bir tikə belə haram qazanc aparmamışam. Həmişə halal ruzinin arxasınca getmişəm. Mənə görə Rəvanın bizim ailədən şəhid olaraq çıxmasının əsas səbəblərindən biri elə məhz budur ki,nə qədər çətinliyə düşsəmdə əzəldən haramçılıqla işim olmayıb. Ailəmi də Allah bəyənən formada saxlamağa cəhd eləmişəm.

**Şəhidin Anası:**

Rəvan evimizin son beşiyi idi. Yadıma gəlir o dünyaya gələndə maddi vəziyyətimiz yaxşı deyildi. Rayonda otları presləyib satırdıq. Rəvan dünyaya gəldiyi gün qonşu kənddən bir nəfər gəldi ki, mənə bu preslərdən lazımdı. Hətta pulunu da, yerində ödədi. Mən də, dedim ki
– “ Həqiqətən Allah ruziyə kəfildir. Uşaq dünyaya ruzisi ilə gəldi.”

**Şəhidin Atası:**

İbtidai sinifi rayonda oxudu, sonra vəziyyətlə əlaqədar çıxıb Bakıya gəldik. Deyərdim ki, uşaqlığı çox sakit olub. Onun xoşa gəlməz hərəkəti yox idi. Ta uşaqlığından qətiyyən bizi incitməzdi, küçədə dalaşmazdı, hamı ilə yola gedərdi. Çoxlu dostları var idi. Hamısı ilə də, çox səmimi idi. Hətta bəzən Rəvan dostları ilə gəlib bizdə də qalardılar. Heç bir şikayət eşitməzdik Rəvan barədə. Bir sözlə əxlaqı ilə bağlı heç bir narazılıq eşitmədim və özümün də narazılığ etdiyim yadıma gəlmir. Çox səmimi idi mənimlə də. Nəyisə özü deməli idisə gəlib elə deyirdi, özünün deyə bilməyəcəyi mövzuları qardaşlarının dili ilə çatdırırdı.

**Şəhidin Anası:**

Rəvan çox utancaq bir uşaq idi. Harasa gedəndə orda yemək yeməzdi. Atası ilə qonşu kəndə pres bağlamağa gedəndə orda heç nə yeməzdi, gəlib evdə yeyərdi. Deyirdilər ki – “Nə qədər dil töksək də, Rəvan heç nə yemədi”. Onun bu xüsusiyyəti ancaq yad evlərə aid deyildi, bəzən nənəsigildə də yemək yeməzdi. Onlar da Rəvanın ac qalmasına görə narahat olub onu tez göndərərdilər ki, - “Bu yemək yemir biz narahat oluruq.” Hətta böyüklüyündə belə qardaşıgilə gedəndə bəzən utanardı orda yemək istəməzdi, gəlib evdə yeyərdi.

**Şəhidin Böyük qardaşı:**

Rəvanla aramızda 10 yaş fərq var idi. Tez-tez bizdə qalırdı. Mənim onu öz uşaqlarımdan seçmirdim. Aramızdakı mənəvi rabitə çox fərqli idi. Nə deyirdim canla-başla edirdi, mən də onu qəribə formada çox sevirdim və hamı kimi əxlaqının gözəlliyinə heyran olurdum.

**Şəhidin Qardaşı:**

Ondan 3 yaş böyük olsam da, mənimlə çox mehriban idi. Deyib-gülürdük, çox şeyləri gəlib bölüşürdü. Onun ən çox sevdiyim xüsusiyyəti istiqanlı olmağı idi. Yəni elə biri idi ki, böyüklə böyük, kiçiklə kiçik olmağı bacarırdı. Düşdüyü məclislərdə yad kimi kənarda qalmazdı. Qaynayıb qarışardı məclisə. Yanında nə qədər pis əxlaq biri olsa nəin ki, onunla pis rəftar edərdi, onu həmişə yaxşı tərəfə çəkərdi. İşdən sonra çöldə elə də çox vaxt keçirməzdi. Vaxtında evdə olardı. Ailəsiylə vaxt keçirməyi sevirdi. Dostları ilə də əlaqəm var idi. Hamısı ondan razı idi, yəni indiyə kimi görməmişəm ki, hansısa bir dostu ondan şikayət eləsin. Dostları ilə əksər vaxtlarda məscidə və məclislərə gedərdi.

**Şəhidin Anası:**

Düzdü onu çox sevirdik ama buna baxmayaraq onu digər qardaşlarından seçib ərköyün böyütmədim. Çox şükür Allaha körpəliklərindən övladlarımızın hər biri gözütox olub. Həmişə zəhmətkeş olublar. Harasa gedəndə hansısa bir istəkləri üçün ağlayıb bizi yormayıblar. Eləcə də Rəvan. Uşaqlığından gözütox olub. Düzdür ki, dəcəllik edib, dinc dayanan uşaq olmayıb amma ziyan da, verməyib. Məsələn

yadıma gəlmir ki, hardasa oynayanda ya dəcəllik edəndə nəyisə salıb sındırsın, dağıtsın və ya kiminləsə dalaşsın. Qətiyyən bunları etməzdi, amma dəcəlliklərindən də, geri qalmazdı.

**Şəhid Rəvan Alxaslı:** [1]

Ustadım (Eyvaz Abdullah) deyir ki: Neçə illər bundan qabaq (2002 ci il olardı) məsciddə uşaqlara Qurandan dərs deyirdim. Uşaqlardan bir neçəsi ad günümü öyrənib mənə hədiyyə almışdılar. Həmin uşaqlara gözəl surətdə başa salaraq hədiyyəni özlərinə hədiyyə elədim. Dedim ki, əgər mən sizdən hədiyyə alsam, o biri uşaqlar da elə bilcək mütləq müəllimə hədiyyə almaq lazımdı. Bəlkə də kiminsə imkanı olmasa o bundan sonra dərsə gəlməyəcək. Və sair. Allah heç bir valideyni övladı qarşısında üzü qara eləməsin.

**Şəhidin Qardaşı:**

Yadıma gəlir bir dəfə balaca uşaq idik. Mənim 9 Rəvanın 6 yaşı olardı. Rəvan təklif elədi ki, traynikə qulaqcığı taxaq və qulaq asaq. Mən də, razılaşdım. Qulaqcığı qulağımıza yaxınlaşdırmağımızla ikimizi də, tok vurdu. Qulaqcığı atıb qaçdıq. Yaxşı ki, yüksək cərəyanla vurmadı. Bu hadisə heç vaxt yadımdan çıxmaz dediyim hadisələrdəndi. Hər dəfə yadıma düşdükcə gülürəm.

---

[1] Bu yazı Rəvanın sosial şəbəkədəki paylaşımları arasından götürülüb.

**Şəhidin Anası:**

İkimiz də ərəb dili dərslərinə gedib ərəbcə öyrənirdik. Amma mən mütəmadi olaraq gedə bilirdim deyə ondan tez öyrəndim. Mən artıq Quranı oxumağı bacaranda o hələ öyrənirdi. Heç müharibə yox idi o vaxtlar Rəvan deyirdi ki – “Ana mənim üçün Quran oxu, qoy özüm eşidim ki, anam mənim üçün Quran xətm eləyib.” Mən də oxuyurdum. Mənə deyirdi ki – “Əgər mən şəhid olsam mənim üçün ağlama. Ağlasan halal etmərəm səni” .

*****

Evdə olduğu vaxtlar isə tez-tez mərsiyyəyə qulaq asırdı hətta özü də oxuyurdu. Onu görən deyirdi ki, “Rəvan İmam Hüseyn (ə) aşiqidir”. Bəzən mənə də deyirdi ki, - “Ana gəl sən də oxu, səsivi yazım telefona” Mən də oxumurdum, gülüb keçirdim. [2]

Telefonu bura tut.

[2] Bu QR kodu oxudaraq, Rəvanın öz səsi ilə oxuduğu mərsiyyəni dinləyə bilərsiniz.

Döyüş yoldaşları deyirdi ki, - " Döyüşün ortasında mərsiyyə oxuyardı. Döyüş başlamadan qabaq Allahla münacat edər və dua oxuyardı. Bizdən balaca olsa da bizlərə məsləhətlər verərdi. Dincələndə isə bizə Peyğəmbərlərdən, İmamlardan danışardı. Ən çox da, İmam Hüseyndən (ə) danışardı." [3]



Telefonu bura tutun

[3] Bu QR kodu oxudaraq, Rəvanın öz səsi ilə oxuduğu mərsiyyəni dinləyə bilərsiniz.

**Şəhidin Qardaşı oğlu Hüseyn:**

Rəvan əmi təkcə mənim əmim deyil həm də böyük qardaşım idi. Demək olar ki, bir gündən bir gələrdi bizə. Bəzən biz yığıb çağırardıq ki gəl bizə, deyərdi işim var gələ bilmirəm. Amma sonra qapı döyülərdi və içəri girib bizə sürpriz edərdi. Heç vaxt əliboş gəlməzdi. Bizi sevindirmək üçün həmişə nələrsə alardı. Kədərli olanda belə bizə gülməli nələrsə danışardı ki, kefimiz düzəlsin, özümüzü pis hiss etməyək. Onun yanında olanda özümü çox rahat hiss edirdim, sanki əmimlə yox bir qardaşımla bir yerdəyəm. Bizimlə elə oynayardı ki, elə bil yaşıdıq. Bundan əlavə bizə gələndə çoxlu mərsiyyə oxuyardı. Bizim "Kəlaminin Naləsi" kitabımız var idi. Ordan ən xoşuna gələn mərsiyyələri, əsasən də Xanım Zəhradan (s.ə.) və İmam Hüseyndən (ə) olan mərsiyyələri seçib oxuyardı və bizə də deyərdi ki, siz də oxuyun. Sonra da səsimizi yazardı. [4]



Telefonu bura tut

[4] Bu QR kodu oxudaraq, Rəvanın öz səsi ilə oxuduğu mərsiyyəni dinləyə bilərsiniz.

**Şəhidin Anası:**

Rəvan bəzi məclislərdə məddahlıq da edirdi, gedib mərsiyyə oxuyurdu. Xüsusən də Məhərrəmlik ayında Rəvan bir başqa olurdu. Elə bil cuşə gəlirdi Məhərrəmlikdə. O qədər sinə vururdu ki, evə gələndə sinəsi qıpqırmızı olurdu. Heç nə onu İmam Hüseyn (ə) məclisində sinə vurmağının qarşısın ala bilməzdi. Yadıma gəlir, bir Məhərrəmlik ayında işdə əli yaralanmışdı və sarğıda idi. Axşam İmam Hüseyn (ə) əzası var idi, məsciddə. Təbii ki, Rəvanı saxlamaq olmazdı, durub getdi həmin məclisə. Dostları videosunu çəkmişdilər mənə də göstərdilər dəhşətə gəldim. Əlinin sarğılı olmağını sanki unudub elə möhkəm sinə vururdu ki, görəndə heyrət bürüdü məni. Elə bil Rəvan İmam Hüseynin (ə) və Əbəlfəzl Ağanın adı gələndə hər şeyi unudurdu.

**Şəhid Rəvan Alxaslı:** [5]

Hüzeyfə ibn Yəman: «Peyğəmbərin Hüseynin Əlindən tutub belə buyurduğunu eşitdim ki: Ay camaat! Bu Hüseyn ibn Əlidir. Onu tanıyın. Canım (qüdrət) əlində olana and olsun ki, həm o, həm onu sevənlər və həm də onu sevənləri sevənlər Cənnətdədirlər.»

**Şəhidin Atası:**

2014-cü ildə getdi əsgərliyə, 2016-cı ildə isə müharibə başladı (aprel döyüşləri). Geri göndərilməsi təsdiq

[5] Bu hədis Rəvan tərəfindən sosial şəbəkədə paylaşılıb.

olunmuşdu, biz də gözləyirdik ki, bu günə ya sabaha gəlib çıxar. Amma dönməli olduğu vaxt geri dönmədi və təbii olaraq bu müddət ərzində biz çox narahat olduq ki, birdən başına nəsə bir iş gələr və ya nəsə bir hadisə baş verər. Çox şükür 15 gün sonra sağ-salamat geri gəldi. Biz onun geri dönməyinə çox sevinirdik, o isə tam olaraq bizim kimi düşünmürdü. Deyirdi: "Yanımda o cür oğlanlar şəhid oldu. Allah onu mənə qismət eləmədi." Mən də, deyirdim ki "Bala hərənin bir taleyi var, elə demə".

**Şəhidin Anası:**

Rəvan əsgər gedəndə arxasınca ağlamadım və ya nəsə narahatlıq etmədim. Yola salıb elə geri döndüm. Sanki belə sadə bir səfərə çıxırmış kimi. Hətta mənə deyirdilər - "Sən necə anasan övladların üçün ağlamırsan, darıxmırsan?". Mən də, deyirdim ki, - "Onları mənə Allah verib, Allah özü də, qoruyacaq."

Geri dönməli olduğu tarixdə isə Rəvandan xəbər ala bilmədik. Sonradan bildik ki, aprel döyüşləri başlayıb deyə geri dönməyib və döyüşlərə qatılıb. Onun şəhadətə qarşı elə bir bağlılığı var idi ki, sözlərlə təsvir eləmək çox çətindir. Kərbəlada, Məşhəddə olanada da, elə ancaq şəhadət istəyirdi. Ancaq deyirdi ki – "Dua edin şəhid olaq." O danışanda hiss edirdim ki, bunu quru-quru demir. Şəhadət arzusu onun içindən gəlir. Və çox narahat olurdum ki, müharibədir hər şey ola bilər. Amma Allaha təvəkkül edirdim hər vaxt. Çox şükür Allah ki, 15 gün sonra sağ-salamat geri döndü. Biz sevinirdik onun sağ-salamat

qayıtmağına o isə elə hey deyirdi ki – “Anacan yanımda döyüş yoldaşlarım şəhid olur, Allah onu mənə qismət eləmir.”Deyirdi – “Görəsən Allaha laiqli bəndə deyiləm deyə mənə şəhadət nəsib etmir?” Deyirdim – “Elə demə verəndə, odur alan da odur. Biz Həmişə Allahdan razıyıq və heç nəyə üsyan etmirik.”

**Şəhidin Atası:**

İnternetdə qarşıma çıxırdı tez-tez şahadət barədə paylaşımlar edirdi. Paylaşımlarından hiss olunurdu ki şəhadəti çox arzuyır. Amma bu artıq arzu deyildi bu onun seçimi idi. Mən də heç vaxt qadağan eləmədim elə düşüncəni və ya paylaşımları. Deyirdim Rəvan Allah yolunu tutub gedir.

**Şəhidin Qardaşı:**

O döyüşə gedəndə bilirdim ki, şahadət arzusu ilə gedir. Çünki hər sözündə söhbətində şəhadətdən danışırdı. Deyirdi - ”Dua edin şəhadətə qovuşum”. İnternetdəki paylaşımlarından da, hiss olunurdu ki, Rəvan şəhadət aşiqidir. Aprel döyüşlərindən gələndə də, deyirdi ki dostlarım şəhid oldu Allah mənə nəsib eləmədi şəhadəti. Mən də deyirdim ki, belə demə deməli qismət deyilmiş. Təsəlli edirdim onu müxtəlif sözlərlə, amma o yenə pis olurdu ki, niyə şəhid olmadım.

**Şəhidin Anası:**

Əsgər gələndən sonra başladı işləməyə. Bir yerdə durmazdı, çox çalışardı, işləyərdi amma bizə də vaxt

ayırmaqdan geri qalmazdı. Daima nəsə bir işlə məşğul olardı amma o iş onu bizdən uzaqlaşdırmazdı. Hər işə gedəndə gəlib bizi öpərdi, və hər işdən gələndə bizi öpərdi. Bəzən işinə görə cibində böyük miqdar pullar olardı. Deyirdim ki – "Bala ehtiyyatlı ol, birdən pulu oğurlayarlar, sonra camaatın pulun hardan tapıb verərik. " Deyirdi – "Ana narahat olma oğrular mənə baxan deyir bunda pul nə gəzir əşi." Mən də onun bu cavabına çox gülürdüm.

*****

Rəvan həm Məşhəd həm də Kərbəla ziyarətində olmuşdu, mən isə ancaq Məşhəddə olmuşam. Mənə Kərbəladan üzük gətirmişdi. O üzüyü hələ də, saxlayıram. Mənə deyirdi ki, - "Ana səni Kərbəlaya aparacam". Özü bəzi vaxtlar zəvvarbaşı olaraq da, fəaliyyət göstərirdi. Kərbəlanı o qədər çox sevirdi ki, deyirdi – "Ana istəyirəm hər həftə gedib Kərbəlaya".

**Şəhidin Böyük qardaşı:**

2009 cu ildə mən namaza başlayandan sonra o da bizlərə baxıb namaza başladı. O qədər tərbiyəli və ədəb-ərkanlı idi ki, onu görənlərin əksəriyyəti Rəvanın gözəl əxlaqından danışırdı. Hətta bazarda işləyirdi və maddi imkanı Kərbəlaya getməyə uyğun deyildi. Bazarda işləyənlərdən biri Rəvanın əxlaqına heyran olub ona Ərbəin səfəri ehsan eləmişdi. Yadıma gəlir sevincindən yerə göyə sığmırdı.

**Şəhid Rəvan Alxaslı:**[6]

Salam Aleykum. Axşamınız xeyirli, uğurlu olsun. Əvvəla deyim kiminsə xətrinə dəymişəmsə, kiminsə qəlbini qırmışamsa, kiməsə nəsə söz vermişəm yadımnan çıxıbsa, hamınız haqqınızı halal edin. İnşəAllah #29:10:2017 tarixinde Kərbəla səfərinə yola düşürəm. Kimisi ilə görüşdüm, kimisi ilə görüşə bilmədim. Xoda hafiz. Allaha əmanət olun. #LEBBEYKYAHUSEEYN

**Şəhidin Ərbəin yoldaşı:**

Biz Rəvanla 2018ci ildə Ərbəində (Məşhəd və Kərbəlada) bir yerdə olmuşuq. Düzdür ki, ayrı avtobuslarda hərəkət edirdik amma Kərbəlanı bir yerdə ziyarət elədik. Rəvanı Nəcəfdən Kərbəlaya getdiyimiz vaxt, yolda tanıdım. Mən yolu tək getməyi sevirəm deyə qrupdan ayrıldım və tək hərəkət eləməyə başladım. Həmin vaxt Rəvan da Əbəlfəzl Ağadan mərsiyyə oxuya-oxuya gedirdi. Onun eşq dolu və yanıqlı səsi ona qoşulmağıma səbəb oldu. Deməк olar ki, yol boyu oxuduğu mərsiyyələrin əksəriyyəti Əbəlfəzl Ağa barəsində idi. Yolda hərəkət etdikcə Rəvanın yalnız səsi deyil, onun əxlaqı, istiqanlılığı, ədəb-ərkanı da məni valeh edirdi. Daima gülərüz və xoşxasiyyətli davranırdı hər kəsə. Hətta mən Rəvandan 2-3 yaş böyük olsam da mənimlə elə ədəblə davranırdı ki, sanki mən onun babası ilə yaşıdam. Mən özüm də çox şəhid kitabı oxumuşam və çox sevirəm şəhid kitabların. Rəvanı görəndə

[6] Bu yazı Rəvanın sosial şəbəkədəki paylaşımları arasından götürülüb.

üzünün nurundan, rəftarlarından onu şəhidlərə bənzədirdim. Ələlxüsus onu Şəhid Himmətə və İbrahim Hadiyə bənzədirdim. Mənə siqareti tərgitmək əhvalatın danışanda onun nə qədər iradəli, İslama bağlı, qətiyyətli biri olduğun anladım.

**Şəhid Rəvan Alxaslı:**[7]

Sual verdilər:

- "Məhərrəmlikdə gedirsən sinə vurursan, əza saxlayırsan. Bəs Əbəlfəzl (ə) yolunda hər şeyivi verərsənmi?"

Dedim:

- Bəli
- Canıvı belə?
- Bəli
- Onda o siqaret nədir? Ağa sənin əlində onu görməy istəmir. Ağaya xatir çox şeyi yox onu at.

Mən də, ondan sonra siqaret çəkmədim.

**Şəhidin Dostu:**

Rəvanın oxuduğu bir neçə şəhid kitabı var idi. Amma onların içərisində Möhsün Höcəciyə çox məxsusi məhəbbəti var idi. Onu tanıyandan sonra Höcəcinin aşiqlərindən oldu.

Bunlardan əlavə Rəvan dini hökümlərə qarşı çox həssas idi. Məxsusən də Vəliyyi Fəqihə qarşı. Rəhbərə çox böyük sevgisi var idi. Bu sevgi səbəb olurdu ki, kimsə Rəhbərə

[7] Bu hissə Şəhidin şəxsi sosial hesabından götürülüb.

zidd bir fikir söyləyəndə Rəvan Rəhbəri müdafiə edirdi. Daima harda olsa müqavimət cəbhəsindən dönmürdü. Hətta sosial şəbəkələrdə belə paylaşımlarından hamı bilirdi ki Rəvan Rəhbərin aşiqidir. Və Rəvanda olan sevgi şəxsə pərəstiş deyildi. O müqavimət xəttini çox sevirdi. Və bu xəttin, bu inqilabın başında dayanan Rəhbərini daima dəstəkləyirdi.

**Şəhid Rəvan Alxaslı:**

Kişinin düşməni gərək kişi ola. Gizlində məscid sökürlər, adların da kişi qoyublar!!!

*****

İnsan hüquqlarından dəm vuran Fransa niyə Peyğəmbəri və Quranı təhqir edənləri cəzalandırmır? [8]

**Şəhidin Anası:**

İmam Hüseyn (ə) məktəbi ona çox şey öyrətmişdi. Ələlxüsus səxavəti. Hər nəyi var idisə Allah yolunda verirdi, xərcləyirdi. Bir dəfə yadıma gəlir əlinə bir miqdar pul keçmişdi, onu aparıb hamısın uşaqlar evinə xərclədi. Sonradan öyrəndik ki, Rəvan bu işi mütəmadi olaraq görür. Çox sevinmişdim ki, oğlum Allah yolunda infaq edə bilir və bunu içindən gələrək, heç kimin təziqi altında olmadan edir.

---

[8] Qeyd: Bu paylaşım Fransada İslam düşmənləri (və ya insanlıq düşmənləri) fitnə törətdikdə edilmişdir.





**Ərbəin yoldaşı:**

Biz Kufədə olanda qaldığımız evin işıqları söndü. Qeyd edim ki mən Məşhəddə şəfa tapanlardanam. Kərbəlada olduğumuz vaxtlarda da təzə-təzə görməyə başlayırdım və gözüm nisbətən zəif görürdü. Rəvan o qaranlıqda məni qətiyyən özbaşıma buraxmırdı ki, birdən başıma xoşagəlməz bir hadisə gələr. Yemək yeyəndə belə məni yanından ayırmırdı. Həmin ziyarətdə mənim qohumlarım da var idi. Heç onlar o qədər mənə can yandırmırdılar. Hətta Kərbəlada 3 gün qızdırmalı yatdım mən. Qohumlarım yaxın durmurdular mənə amma Rəvan başımın üstündən ayrılmır, mənə xidmət edirdi. Həmin günlərdə 2 gün tam olaraq yatmayıb, yanımda olmağı dəqiq yadımdadır. Mən onun bu davranışların gördükcə deyirdim ki, həqiqətən də Rəvan İmam Hüseyn (ə) üçün canını verəcək biridir. [9]



[9] Rəvanın ziyarət şəkili

*****

Biz söhbət edəndə hiss edirdim ki, Rəvanın ümumi olaraq Əhli-beytə (ə) çox məxsusi bir bağlılığı var. Amma Əbəlfəzl Ağanın xas aşiqlərindən idi. Onun barəsində xeyli söhbət edirdi, mərsiyyə oxuyurdu, danışırdı. Deyirdim bu uşağın ürəyi Əbəlfəzl Ağaynan döyünür. Xanım Rüqəyyəni (s.ə.) də çox sevirdi.  O vaxt hələ ailə qurmamışdı. Deyirdi ki, "Bir qızım olsun adın Rüqəyyə qoyum."

**Şəhidin Atası:**

Bir müddət sonra ailə həyatı da qurdu. Dini toy elədi özünə. MaşAllah olsun Allah bu ailəyə biri oğlan, biri qız olmaqla, iki bala lütf elədi. Oğlunun adını özü Muhəmməd qoysada, ikinci övladını müharibəyə getdiyi üçün görə bilmədi. Demişdi:

"Qızım olsa adın Rüqəyyə, oğlum olsa adın Səccad qoyarsınız."

Atası Xanım Rüqəyyənin (s.ə.) eşqi ilə şəhadətə gedərkən, övladı da geridə O mübarək Xanımın adını daşıdı.

**Şəhidin Anası:**

Ayın 21-i dedilər ki, uşaqları əsgər aparırlar. Rəvanın böyük qardaşı dedi ki, - "Sən ailəlisən qal, mən gedərəm" Rəvan da, razılaşmayıb öz adın yazdırmışdı və çağırış gələndə təlim adı ilə getdi. O vaxt mən qardaşımın

səhhətinə görə xəstəxanada onun yanında idim deyə, gedib yola sala bilmədim. Atası onu yola salmışdı. Bizim kənddən başqa həmyaşıdları da, getmişdi. Onlar deyirdilər ki Rəvan Avtobusun qapısında dayanmışdı, kim minsə gülə-gülə deyirdi ki, hər şey yaxşı olacaq. Bəzilərinin kürəyinə vurub deyirdi – “Sənin üzündən şəhidlik yağır keç!”. Yol boyu da avtobusda hamı ilə elə danışır, elə zarafat edirdi ki, elə bil döyüşə yox toya gedir.

**Şəhidin Atası:**

2020-ci ilin sentyabr ayında könüllü olaraq getdi və 27si döyüş başladı. Tez-tez zəng edirdi ki, ata narahat olma torpaqları ala-ala gedirik. Demək olar hər bir gündən bir zəng edərdi, danışardıq. Ən son ayın beşi danışdıq. Dedim – “Bala sabah ad günümdü, sən də uzaqdasan necə edək?”. Dedi – “Ata sən ad günüvü keçir mən sənə zəng edib belə təbrik edəcəm”. Son danışığımız elə o oldu. Ondan sonra bir daha Rəvandan zəng gəlmədi.

**Şəhidin Böyük qardaşı:**

44 günlük müharibəyə gedəndə telefonda xeyli danışdıq. Axırda dedi ki – “Haqqıvı halal elə. Şəhid olsam səndən İmam Hüseynə (ə) salam deyəcəm və sənə şəfaət edəcəm.” Dedim – “Artislik eləmə, səndən heç nə olan deyil. Get xidmətivi elə qayıt gəl” Düzdür ki, ona ərk edib sərt sözlər deyirdim bəzən amma qətiyyən bir dəfə belə olsun mənə sərt bir reaksiya ilə və ya sözlə cavab verməzdi.

**Şəhidin Qardaşı oğlu Hüseyn:**

Axırıncı dəfə zəng edəndə mənimlə də danışmaq istədi amma mən utandım deyə onunla danışmadım. Dedi ki, 5-6 günə gələcəm. Elə də oldu...Kaş onunla sonuncu dəfə danışardım...

**Şəhidin Ərbəin yoldaşı:**

Bizim kərbəlada qaldığımız yer bazarın yanında və Əbəlfəzl Ağanın hərəminə çox yaxın idi. Bir dəfə hərəmə tərəf gedirdik. Bazardan keçəndə Rəvan dedi ki, "Allah eliyə Əbəlfəzl Ağamın hərəmindən çıxanda yağış yağa. Bir niyyətim var onu eləmək istəyirəm." Biz də dedik ki, inşAllah edərsən. Gedib İmam Hüseyni (ə) sonra da Əbəlfəzl Ağanı ziyarət elədik. Əbəlfəzl Ağanın hərəmindən çıxan kimi bir gur yağış başladı. Rəvan elə bil bu anı gözləyirmiş kimi əlini qaldırıb ucadan və ürəynən dua elədi:

"İlahi nə vaxt canımı almaq istəsən Məhərrəm ayından başqa bir ayda alma..."

Xoş onun halına ki, Allah 2020 ci ilin Məhərrəm ayının sonlarına yaxın Rəvanın üzünə şəhadət qapısın açdı, və o bu qapıdan üzüağ keçdi...

**Şəhidin Böyük qardaşı:**

İki gündən bir zəng edib deyərdi ki, - "Narahat olmayın qaydasındadı hər şey". Çox uzun uzadı danışmazdıq. Bir az danışıb, öz əhvalından xəbər verərdi və bizləri soruşub sağollaşardı. Amma son dəfə danışanda çox uzun danışdıq. Bir-bir hamı ilə danışmaq istədiyin dedi. Hamı ilə danışdı

sonra yenə mənə verdilər telefonu. Belə bir söhbət keçdi aramızda:

Dedim – Özündən muğayat ol.

Dedi – Narahat olmayın 4-5 günə gələcəm inşAllah.

- Döyüş hələ təzə başlayır və 4-5 günə bitəcək bir döyüşə bənzəmir. Sən necə gələ bilərsən ki?
- Yox, narahat olma. Gələcəm
- Birdən çaşıb qaçarsan ha döyüşdən?! Qəti!
- Yox nə qaçmaq. Bizə qaçmaq yaraşmaz. Amma 4-5 günə gələcəm inşAllah.

Heç ağlıma gəlmədi ki, şəhid olar. Onunla gedənlərdən narahat olduqlarım var idi ki, onlara nəsə olar, amma Rəvan yox. Və dediyi kimi də oldu. 4 gün sonra xəbəri gəldi, 5 gün sonra özü...

******

**Şəhidin Anası:**

Ayın 5-i səhər çağlarında danışdıq. Harda olduğun soruşanda yerin dəqiq demirdi. Deyirdi – “Qarabağdayam. Yeməyimiz, içməyimiz, yerimiz əladır. Narahat olmayın” Halbuki, bilirdim ki quru yerdə yatır. Bizi düşünür, narahat olmayaq deyə elə deyirdi. Ayın 10a qədər xəbər ala bilmədik. Bu müddətdə çox yerə zəng elədik ki, bir xəbər bilək amma xəbər olmadı. Ayın 10u sübh namazından sonra yuxuda gördüm Rəvanı. Gəlib məni qucaqladı, qaldırdı. Dedim – “Rəvan məni yerə qoy, ağıram zədələnərsən.” Dedi – “Heç nə olmaz.” Məni qaldıranda köynəyi qalxdı gördüm yarası var. Dedim – “Bala sənə güllə dəyib?” Dedi – “Yox, ana. Boş şeydi.” Sonra keçib öz otağında uzandı.

Oyandım yuxudan, atasına danışdım yuxunu bir şey demədi. Axşama xəbəri gəldi ki, Rəvan böyründən qəlpə yarası alaraq şəhid olub. Bu yuxu yadıma düşdü, yuxudakı yara yeri ilə Rəvanın qəlpə yarası aldığı yer üst-üstə düşürdü. Bəlkə də Rəvan yuxuda son dəfə məni qucaqlamaq istəyib deyə gəlmişdi.

**Şəhidin Atası:**

Ayın 10-u axşam yeməyimi yedim və xəbərləri izləmək üçün keçdim içəri otağa. Bu vaxt elə böyük oğlum zəng edib dedi ki, ata Rəvan şəhid olub. Çox pis hiss elədim özümü. Elə bil hər tərəf başıma fırlandı. Gecə ilə maşın tutub rayona getdik. Saat 02:00 da gətirdilər Rəvanı. Tanınmaz vəziyyətdə deyildi sadəcə kimliyinin təyin olunmağı 5 gün çəkmişdi elə 5 gün sonra da, geri gətirdilər. Cibində öz şəkli olmuşdu deyə ordan tanımışdılar (Həmin Şəkil qoy) Səhərsi gün rayonda da dəfn elədik. Dilindən eşitdiyimiz beyti də elə baş daşında, qeyd etdik. Mənim fikrimcə bu elə öz beyti idi:

“Olaram mən o zaman bəxtəvərin bəxtəvəri,
Yazıla baş daşıma oldu Əbəlfəzl nökəri...”

*****

**Şəhidin qardaşı:**

Rəvanın şəhadət xəbərin atamdan eşitdim. Yeməyə təzə əyləşmişdim heç bir tikə yemədən xəbəri eşitdim elə bildim dünya başıma yıxılır. Gözlərim qaraldı, şoka düşdüm, ağlamaqdan özümə gələ bilmirdim. Komendant saatı idi deyə maşın tapmaq olmurdu, nə edəcəyimi bilmirdim.

Axırda qonşumuz sağolsun maşın tapıb yola saldı bizi. Rayona qədər ağlaya-ağlaya gedib o nur üzlü qardaşımı ayın 11-i üzüağ torpağa dəfn etdik.

İndi qarşımda olsa onu qucaqlayıb, öpərdim və deyərdim ki, həmişə yanımızda ol.

**Şəhidin böyük qardaşı:**

Rəvanın xəbərin aldığım gecə detaylarına qədər yadımdadır...

Dostumun ailəsi və bizim ailə bir yerdə oturmuşduq. Dedik güldük bir az söhbət elədik. Həmin gün evdəkilər Rəvanı yuxuda görüb amma mənə deməyə çəkiniblər. Söhbət əsnasında dostumun yoldaşı dedi ki – "Sizinkilər də yuxu görüb. Maraqlı yuxudur." Dedim ki – "Nə yuxusudur ki elə? Mənə deməyiblər axı." Əvvəl demək istəməsələrdə mənim təkidimi görüb dedilər ki – "Rəvanın şəhid olduğunu görüblər..."

Söhbətimizdən 1-2 saat keçmişdi ki, əmim oğlundan zəng gəldi mənə. Dedi ki – "Deyirlər Rəvan şəhid olub". Həmin an elə hislər keçirdim ki, sözə tökə bilmirəm. O hissiyatın qarşısında sözlər aciz qalır. Əvvəl qəbullana bilmədim dedim – " Yox, elə bir xəbər yoxdur. Ola bilməz." Heç inanmaq istəmirdim. Çox yerə zəng edəndən sonra bu acı həqiqəti qəbul elədim. Əmim oğluna yenidən zəng elədim. Dedi – "Şəhidin təyin olunması üçün gedirə morqa." O məndən daha qabaq çatmışdı rayona və içəri girib Rəvanı görəndə havalanmışdı. Neçə gün özünə gələ bilmədi. Ona təsir edən ünsürlər ilk dəfə cəsəd görməyi,

bunun öz qohumu olmağı, yaşının nisbətən az olmağı və.s. olsa da, bunlar ən əsas ünsür deyildi. Bu qədər təsir altına düşməsinə səbəb o idi ki, Rəvanın üzündən ağ örpəyi götürəndə, əmim oğlu Rəvanın güldüyün iddia edirdi. Özü də həyatda olanda necə gülürdüsə elə güldüyün deyirdi. Sanki ölməmişdi. Sanki sağ idi.

Evdə qoymadım açsınlar üzün. Dəfn edəndə Rəvanı qəbrə mən qoydum və təlqin demək üçün düşdüm yanına. Orda özümü saxlaya bilməyib üzünü açdım. Gördüm əmim oğlu necə deyirdisə, elə idi. Rəvan gülürdü. O çox xoşbəxt idi və sanki həqiqətən sağ idi... Qardaşımı orda son dəfə öpüb, vidalaşdım...

**Şəhidin Ərbəin yoldaşı:**

Çox tez-tez olmasa da, Rəvanla Bakıda da görüşürdük. Düzün desək o könüllü gedəndə bir müddət idi ki, danışa bilmirdik və onun könüllü getdiyindən xəbərim yox olmamışdı. Amma yadıma gəlir ki şəhid olmadan bir neçə gün əvvəl onu yuxuda görmüşdüm. Gördüm Məşhəd ziyarətindədir və ağ libasda göz yaşı tökür. Yuxudan ayıldım və bir az sonra onun şəklin internetdə şəhidlər sırasında görəndə elə bil başımdan aşağı qaynar su tökdülər. Özümə gələ bilmirdim mən də ağlayırdım. Yadıma bu yuxu düşdü. Bəlkə də dostum yuxuda İmam Rızadan (ə) razılıq alıb sevinc göz yaşlarını mənimlə bölüşürdü...

**Şəhidin dostu:**

Rəvan şəhid olmadan qabaq dostuna yazmışdı ki, - "Əgər şəhid olsam səndən İmam Hüseynə (ə) salam deyəcəm. Və

bu videonu paylaşarsan zəhmət olmasa" Bu da Rəvanın şəhadət üçün seçdiyi videosu.[10]

*Telefonu bura tutun*

**Şəhidin Anası:**

Rəvan şəhid olanda da, onun cənazəsinin yanında özümü döymədim, başıma-gözümə vurmadım nə də Rəvan deyib ağlamadım. İxtiyarsız formada dilimə gəldi ki – "Rəvan da, İmam Hüseynə (ə) qurbandı" belə deyib Ağam İmam Hüseynə (ə) ağladım. Ürəyimdən Rəvana yox ancaq İmam Hüseynə (ə) ağlamaq gəlirdi, elə də edirdim.

*****

Deyərdim ki indi bizə mənəvi olaraq dəstək olan ünsürlərdən biri də, Rəvanın balalarıdır. Çox şükür Allah

[10] Bu videonu izləmək üçün zəhmət olmasa aşağıdakı QR kodu oxudun.

ki, biraz onlarla təskinlik tapırıq, onlar olmasaydı çox daha çətin olardı bizə. Sağlığında Rəvan qoymurdu ağlayım, indi də, balaları qoymur. Bəzən evdə lay-lay çalanda səsim ağlamaq tonuna keçən kimi balaları gəlir ki, - "Nənə, ağlama". Qəbr üstünə gedən də, qoymurlar ağlayım.

İndi kimsə evimizə gələndə nəsə alıb gətirəndə deyirəm ki, - "Bax ata göndərib sizə" Onlar da çox sevinirlər. Deyirlər – "Ata mənə başqa şeylər də alıb göndərəcək."

**Şəhidin Atası:**

Günü bu gün də, bəzən elə gəlir ki, şəhid olmayıb indi hardasa bir yerlərdədi qayıdıb gələcək. Tez-tez Rəvanın səsin eşidirəm, bəzən onu görürəm. O gün məsələn evdə oturmuşdum ani olaraq səsin eşitdim. "Ata" – dedi. Gözümü açdım gördüm ki qapıda oturub. Bir anlıq elə bil gəlib baş çəkib getdi. Çox həyəcanlandım, sevindim elə bildim gəlib məni çağırır. Amma gərək qeyd edim ki, mən bunu yuxuda yaşamadım, heç bu hadisə baş verəndə yatmamışdım.

Yuxuda isə cəmi bir dəfə görmüşəm şəhadətindən sonra. Gördüm yaralıdı, uzanıb gözün açıb baxdı mənə təbəssüm elədi sonra yenə yumdu gözün.

İndi əgər qarşımda olsaydı ona deyəcək çox sözüm var. Öpüb-qucağlayardım onu, bağrıma basardım və ilk onu deyərdim ki, bu vaxta kimi harda idin?

**Şəhidin Anası:**

Hər bir şeyin yaxşısı olduğu kimi, ölümün də ən gözəli şəhadətdi. Rəvan öz arzusuna çatıb deyə, mən həqiqətən də

elə bilirəm ki Rəvan İmam Hüseynin (ə) yanındadı. Heç vaxt ona ölü demirəm, mənə elə gəlir ki, o həmişə diridir. İndi hardasa gəzməkdə və ya başqa yerdə istirahətdədir amma mütləq qayıdıb gələcək. Bəlkə də, biz gedəcəyik...

Rəvan indi qarşımda olsaydı onu öpüb-qucaqlayardım və ona deyərdim ki – "Balalarından muğayat ol, daima onların yanında ol və başlarına sığal çək."

**Şəhidin Ərbəin yoldaşı:**

Şəhadətindən sonra Rəvanın ailəsin ziyarət etməyə getdim. Balaca uşaqların və ailəsin gördükdə çox təsirləmişdim. Üstündən bir müddət keçdi. Bir dəfə qızdırmam çox yüksək idi. Ölçürdüm təxmini 39 dərəcə göstərirdi termometr. O vaxtlarda şəfa tapdığım üçün mənə yazırıb təbərrük istəyirdilər. Bir xanım var idi o da təbərrük istəyirdi məndən və onunla əlaqə saxlayıb təbərrük vermişdim ona. Qızdırmalı olduğum vaxt bir anlıq, qeyri-ixtiyari olaraq yuxuya getdim. Yuxuda Rəvanı və təbərrük verdiyim xanımı gördüm. Rəvan gəlib bizim əllərimizi üst-üstə qoydu və ədyal verib o xanıma dedi ki, - "Bunu onun üstünə ört. Sonra da isti su ver boğazın yusun." Sonra ani olaraq oyandım və temperaturumun 36 dərəcəyə düşdüyün gördüm və özümü çox yaxşı hiss edirdim. Bir müddət sonra həmin xanımla ailə həyatı qurduq. Onun da nə qədər şəhidlərə aşiq olduğun görəndə bildim ki, şəhidlər öz dostların bir yerə yığırlar.

**Şəhidin Dostu:**

Bir dəfə Gənclik tərəfdə dayanmışdıq belə bir cümlə dedi ki – “Çox günahlarımız var. Şəhadətdən başqa bir şey günahlarımızı yuya bilməz.” Bu cümlə, bu baxış bucağı çox xoşumuza gəlmişdi. İndi də onun bu cümləsi məhşurdu bizim aramızda. Böyüklər necə deyirdi ki Şəhid olmaq üçün gərək elə yaşayasan Rəvan şəhidlər kimi yaşayır, onlar kimi danışır, onlar kimi düşünürdü. Və onlardan biri oldu...

**Şəhidin Böyük qardaşı:**

Bu yaxınlarda yuxuda gördüm ki, kimsə anama zəng edib danışır. Mən soruşuram ki – “Ana kiminlə danışırsan?” deyir - “Rəvanla danışıram. Rəvan sağdır və vəziyyəti çox yaxşıdır, inşAllah gələcək.” Sevincimizdən ağlayırdıq hamımız. Yuxudan oyandım və gördüm ki yuxudur amma həm də həqiqətdir.

“Onlara ölü deməyin...”

Rəvan sağdır və vəziyyəti çox yaxşıdır, inşAllah gələcək...



# *Sonluq*

Başı kəsilmiş şəhidlərin rəbbinin adı ilə...

Şəhid kitabların oxuduqca onlara nə qədər borclu olduğumu hiss elədim. Onlar qəlblərini Həzrəti Fatimənin (s.ə.) Məhdisinə (ə.f.) verib getdilər ön cəbhələrə. Bizlər isə geridə qaldıq. Bu ona səbəb olmamalıdır ki, biz düşünə ki, “bizdən heç nə olmaz.” Xeyr! Xanım Zeynəb (s.ə.) məktəbi bilən şiə, dərk etməlidir ki, şəhidlərin pak qanını yaşatmaq heç də kiçik iş deyil.

Biz geridə qalanlar olaraq gərək İbrahim kimi, Möhsün kimi, Nəsrullah kimi, Rəisi kimi, Rəvan kimi, və.s şəhidlərin getdiyi yolnan gedək. Yəni İmam Zamanın (ə.f.) könlün şad və razı edək. Gərək canımızla, gərək malımızla, gərək elmimizlə və.s. Yəni bir söznən elə yaşayaq ki, İmam (ə.f.) bizdən razı qalsın.

Bu məqsədlər uğrunda Rəvan kimilərin atdığı addımların, etdiyi fədakarlıqların yanında bu kitab atılan kiçik bir addımdır. Rəvanın xatirələrin topladıqca onun necə də şiddətli şəhadət arzu və inqilabi ruhiyyə ilə yaşadığın görürdüm. Hamı onun haqqında deyirdi ki, bu uşaq əsl şəhid idi. Yadıma bu cümləni salırdı ki “Şəhid olmaq üçün, şəhid kimi yaşamaq lazımdı”. Bundan əlavə, Rəvan haqqında kimsə danışanda elə bilirdim indi bir hədis ya Quran ayəsi deyəcək. Çünki yaşayışı elə bil tam olaraq Quran və Əhli-beyt (ə) buyuran kimi idi. Hər kəs onun haqqında danışıb, şəhadət hissəsinə çatanda Qasim

Süleymaninin dediyi cümlə yadıma düşür. Şəhadət barəsində danışanda bu cümləni dedi. Təxmini məğzi belə idi ki, “Bağban yetişən meyvəni dərməsə, o meyvə yaşlanar və öz-özünə yerə düşüb qurdlara yem olar...”

Allah bu kiçik addımlarımızı qəbul etsin... Əhli-beyt (ə) yolunda bizi aza qane olanlardan qərar verməsin...

Bu kitabın ərsəyə gəlməsində Allaha həmd edirəm. Başda Xanım Fatimə (s.ə.), Ağam Əbəlfəzl (ə) və İmam Zaman (ə.f.) olmaqla, əziyyəti keçən hər kəsə təşəkkür edirəm. Və haqlarını halal etmələrini xahiş edirəm.

Şəhadətsiz bitən ömürdən Allaha pənah... “Mən orda gözəllikdən başqa bir şey görmədim”

İmam Hüseyn (ə) karvanına, İbrahimgilə, Möhsüngilə, Qasim Süleymanigilə, Rəvangilə yetişib, üzüağ onlara qoşulmaq ümidi ilə...